4. Araz Osman Nuri, Azerbaycan Hazar ekonomisi və stratejisi, İstanbul, 2001.
5. https://president.az/az/articles/view/12985
6. https://az.trend.az/azerbaijan/politics/2939679.html
7. https://president.az/az/articles/view/56573

## ПРОБЛЕМА СТАТУСА КАСПИЙСКОГО МОРЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ

***Асланова Эмма Али кызы, Багирова Севиндж Рамиз кызы***

***Резюме***

В результате распада СССР количество прикаспийских государств стало пять. Новый геополитический статус Каспия поставил вопросы о разделе моря между прикаспийскими странами и принадлежности его месторождений углеводородов. Известно, что Каспийский бассейн имеет жизненно важное значение для стран региона в силу своих геополитических и геоэкономических возможностей. Следует отметить, что правовой статус Каспийского моря является международным вопросом, и ведущие государства мира могут получить преимущество на Кавказе, в Центральной Азии и в целом на Ближнем Востоке, укрепив свои позиции в этом регионе.

## THE STATUS PROBLEM OF THE CASPIAN SEA AT THE MODERN STAGE

***Aslanova Emma Ali, Bagirova Sevinj Ramiz***

***Summary***

As a result of the collapse of the USSR, the number of Caspian states became five. The new geopolitical status of the Caspian Sea raised questions about the division of the sea between the Caspian countries and the ownership of its hydrocarbon deposits. It is known that the Caspian basin is of vital importance for the countries of the region due to its geopolitical and geo-economic capabilities. It should be noted that the legal status of the Caspian Sea is an international issue, and the leading states of the world can gain an advantage in the Caucasus, Central Asia and the Middle East in general, strengthening their positions in this region.

***Rəyçi: dos. Bağırzadə Cavid***
***Azərbaycan tarixi kafedrasının 12 sentyabr 2022 ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022 ci il***

**UOT:902.**

## ABŞERONDA ARXEOLOJİ TƏDQİQATLAR VƏ ONLARIN İLKİN NƏTİCƏLƏRİ

***t.ü.f.d., dosent Babayev Əlibaba Hüseynqulu oğlu***
***AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya***
***Sabinaaliyeva1997@bk.ru***

**Xülasə:** *Abşeron yarımadasındakı müdafiə qalaları əsasən XIII-XIV əsrin yadigarlarıdır. Abşeronda tikilmiş qalalar (Mərdəkan, Nardaran, Ramana, Bilgəh və.s) vahid müdafiə sisteminin tərkib hissələri olmuş, sığınacaq və gözətçi məntəqələri rolunu oynamışlar. Abşeron qalalarının şimal- şərq sahil boyu tikilməsi təhlükənin daha çox həmin istiqamətdən gözlənilməsi ilə bağlı idi. Əgər düşmən sahilboyu yerləşən qalalardan birini ələ keçirsə idi, o zaman yarımadanın içərilərində Maştağa, Zabrat, Qala, Ramana*

*kəndlərindəki müdafiə tikililərində ciddi müqavimətə rast gəlirdi. Araşdırıcıların hesablamalarına görə Abşeron yarımadasında 30-dan artıq belə müdafiə tikilisi olmuşdur. Əgər Abşeron yarımadasının xəritəsinə diqqətlə nəzərdən keçirsək, onda sahil boyu müdafiə tikililərinin yarımadanın içərilərində olan məntəqələrlə əlaqəsinin ardıcıllığını görə bilərik.*

**Açar sözlər:** Abşeron, qala, müdafiə, tikili
**Ключевые слова:** Апшерон, крепость, оборонные, сооружения
**Key words:** Absheron, the castle, defense, building

Abşeron yarımadasının orta əsrlərə aid olan tarixi-memarlıq abidələri içərisində müdafiə təyinatlı tikililər də mühüm yer tutur. Bu tikililərə müdafiə qalaları və möhkəmləndirilmiş saray tipli iqamətgahları misal göstərmək olar.

Abşeronda tikilmiş qalalar (Mərdəkan, Nardaran, Ramana, Bilgəh və .s) vahid müdafiə sisteminin tərkib hissələri olmuş, sığınacaq və gözətçi məntəqələri rolunu oynamışdır. Abşeron yarımadasındakı müdafiə qalaları əsasən XIII-XIV əsrlərin yadigarıdır. Həmin qalalar, şimal-şərq, şimal qismən isə cənub tərəfdən dövrələyəcək müdafiə xəttinin ön hissəsini təşkil etmişdir. Bu qalalar yerli hakimlərin bir- birindən qorunması üçün etibarlı sığınacaq rolunu da oynamışlar. Abşeron qalalarının şimal-şərq, şərq sahil boyu tikilməsi təhlükənin daha çox həmin istiqamətdən gözlənilməsi ilə bağlı idi. Əgər düşmən sahil boyu yerləşən qalalardan birini ələ keçirsə idi, o zaman yarımadanın içərisində Maştağa, Zabrat, Qala, Ramana məntəqələrindəki müdafiə tikililərində ciddi müqavimətə rast gəlirdi (2, s24)

Deyilənlərə görə yaxınlaşan hücum təhlükəsi gecələr tonqalın işığı, gündüzlər isə tüstü vasitəsilə bildirirdilər. Düşmən basqın haqqında xəbər qaladan-qalaya ötürülür və beləliklə bütün Abşeron ayağa qalxırdı. Əgər tüstü yarımadanın şimal sahillərindən başlanırdısa, sonra həmin işarə Bilgəh, Nardaran, Maştağa, Ramana qalalarından Keşləyə və nəhayət, vahid müdafiə sisteminin son məntəqəsinə -Bakıya çatırdı.

Əgər Abşeron yarımadasının xəritəsini diqqətlə nəzərdən keçirərkən, orda sahil boyu müdafiə tikililərinin yarımadanın içərilərində olan məntəqələrlə əlaqələrin ardıcıllığını görə bilərik.

Araşdırmaçıların hesablamalarına görə, bütövlükdə Abşeron yarımadasında 30- dan artıq müdafiə tikilişi olmuşdur. Bu tikililərdən bəziləri dövrümüzə qədər gəlib çatmış, bəziləri isə təbii fəlakət və ya müəyyən səbəblər üzərindən dağılmış sıradan çıxmışdır.

Digər bir cəhət bu qala və bürclərin hamısında bir şey aydın nəzərə çarpır ki, bu da onların memar ustaların tikinti üçün seçdikləri yerin topoqraqfiyasına ciddi fikir verməleridir. Onların bu qala və bürcləri elə yerdə tikməyə çalışmışlar ki, ora əvvələn ətrafa nisbətən yüksəkdə olsun və oradan daha uzaqlar görünsün: ikincidə də öz təbii şəraiti ilə düşmənin ora yaxınlaşmasını çətinləşdirsin və beləliklə müdafiə işlərini asanlaşdırsın ( 1, s. 126-127).

Qalaların ətrafında tikilmiş bürclü, mazğal və istehkamlı müdafiə tikililərinin qalıqları göstərir ki, bu divarlar kiçik həyətlərin içərisində yerləşən bürclərin müdafiəsini möhkəmləndirmək üçün tikilmişdir. Abşeronun planda dairəvi və ya düzbucaqlı olan qala və bürclərinin, demək olar ki, hamısının quruluşu eynidir. Onlar bir neçə (ikidən səkkizə qədər) mərtəbəyə bölünmüşdür. Bu mərtəbələr arasında yol, divarın içərisində tikilmiş, pilləkandan ibarətdir.

İbtidai şəkildə olsa da burada kanalizasiya yolunun mövcud olması mühasirə zamanı onlardan yaşayış üçün istifadə edildiyi göstərir.

Bununla yanaşı olaraq qeyd edilməlidir ki, qala və bürcləri tikən ustalar tikintinin möhkəmliyinə də ciddi fikir vermişlər. Müdafiə divarlarının xeyli qalın, hətta bəzən

lüzumsuz yerə qalın olması və diqqətlə hörülməsinə baxmayaraq onların tinlərində və aralarında əlavə bürclər tikilmişdir. Bu əlavə bürclərin bir sıra hallarda konstruktiv əhəmiyyəti vardır.

Bu qala bürclərdə birinci mərtəbənin xeyli hündür olduğunu və üst mərtəbələri arasında əlaqənin ( yolun- Ə.B) xüsusi qaydada təşkil edildiyini qeyd etmək lazımdır. Bəzi qalalarda ikinci mərtəbəyə ancaq birinci mərtəbənin tağtavan və ya günbəzinin ortasındakı deşikdən keçmək olar. Ehtimal ki, buraya taxta pilləkan vasitəsilə qalxar, daş pilləkan isə, adətən döşəmədən xeyli hündürdə, az qala birinci mərtəbənin tavan altından başlanır.

Aydındır ki, belə bir quruluş birinci mərtəbəyə soxulan basqınlara qarşı bir müdafiə tədbiri olub, onların üst məntəqələrə çıxmasına ciddi maneçilik törədirdi.

Qalaların daş divarlarında fasad tərəfindən dar bir yarıq şəklində dar pəncərələrə içəriyə doğru genişlənərək mazğal şəklini alır və qalanın daxili hissəsini işıqlandırırdı.

Qala bürclər çox ehtimal ki, üst meydançadan müdafiə olunurdu. Qalanın müdafiəçiləri hücum edənlərə oradan atəş açır və onları daşa tuturdular ( 2, s. 24-26).

Bilgəh qalası XIII-XIV əsrlərdə Şirvanşahlar dövründə ağdaşdan tikilib. Yalnız bir hissəsi dövrümüzə qədər gəlib çatmış bu müdafiə və müşahidə qalasından uzun müddət mayak kimi istifadə olunmuşdur. Vaxtilə gəmilərin gecə saatlarında sahili tapması üçün qalanın üzərində tonqal yandırılırdı. Elə bu səbəbdən də “Tonqal qalası” da adlandırılırdı (4, s.35-40). Məlum məsələdir ki o dövürdə tikinti materialları çox deyildi. Bu səbəbdən qalanın palçıq və yumurta sarısından tikildiyini deyirdilər. Hazırda dövrümüzə qədər gəlib çıxan qalanın hündürlüyü 21metr, diametri 17 metrdir. Qalanın sol tərəfi dəniz istiqamətinə düşdüyü üçün şoranlıqdan, nəmdən ağarıb, sağ tərəfi isə demək olar ki, uçub. Üç mərtəbəsi geniş zirzəmisi, yanında şirin su quyusu və gili yeraltı yol olan qalanın geniş qapısı olmuşdur. Lakin həmin qapı uçulub dağılmış dövrümüzə qədər gəlib çatmamışdır. Su quyusunun aqibəti haqqında demək olar ki, heç bir məlumat yoxdur.

Qala əvvəllər gəmilərə yol göstərən mayak rolunu oynayıb. Onların yalnız gördüyümüz uçuq-tökük bir hissəsi dövrümüzə gəlib çatmışdır. Qala həm müdafiə, həm də müşahidə rolunu oynayan qala olmuşdur ( 3, 44-49).

Qala və bürclərdə müşahidə olunarkən su ilə təmin etmək üçün həm qalaların həyətində, lap yaxınlığında , həm də qalanın daxilində su quyuları- çalalar var idi.

Nəzərdən keçirdiyimiz qala-bürclərin memarlığı, onların sadə, həndəsi fiqurlar silindir və ya paralelopiped şəkilində tikilməsi, divarların demək olar ki, tamamilə bəzəksiz və hamar olması, pəncərələrin bir yarıq-mazğal şəklində olması onların öz vəzifələrinə, yəni feodallar üçün çətin alına bilən bir müdafiə qalası olmasına tamamilə uyğun gəlir. Onların içəriyə girməyi üçün çətinləşdirmək üçün qəsdən balaca hazırlanmış giriş qapıları qalanın kənardan baxana daha böyük və əzəmətli görünməsinə səbəb olurdu. Ərazinin təbii şəraitindən bacarıqla istifadə etmiş memar ustalar bu qala və bürclərin memarlıq görünüşünü də müvəffəqiyətlə həll etmişdir.

### *Ədəbiyyat*

1. Aşurbəyli S. Bakı şəhərinin tarixi . Azərbaycan Dövlət Nəşriyyatı – Bakı 1998 356s
2. Dadaşov.C., Useynov M. Bakının memarlıq abidələri. Azərb.SSR EA nəşriyyatı . Bakı-1955 138s
3. Əliyev İ. , Abdullayev F. Naməlum Abşeron. Bakı -128s
4. Salahzadə Q.H Bilgəh. Bakı-2004.

## АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА АПШЕРОНЕ И ИХ ПРЕДВАРИТЕЛЬНЫЕ РЕЗУЛЬТАТЫ

***Бабаев Алибаба Гусейнкулу***

***Резюме***

Оборонительные крепости на Апшеронском полуострове были в основном реликвиями веков. Построенные на Апшероне крепости ( Мардакан, Нардаран, Рамана, Бильгях и др) являлись составными частями единой системы обороны и выполняли роль укрытии и сторожевых постов. Если противник захватывал один из фортов, расположенных вдоль побережья, то серьезное сопротивление оказывалось в оборонительных сооружениях в селах Маштага, Забрат, Гала, Рамана в глубине полуострова. По подсчетам исследователей, таких оборонительных сооружений на Апшеронском полуострове было более 30. Если посмотреть на карту Апшеронского полуострова, то можно увидеть последовательность соединения береговых оборонительных сооружений с точками в глубине полуострова.

## ARCHAEOLOGICAL STUDIES IN ABSHERON AND THEIR PRELIMINARY RESULTS

***Babayev Alibaba Huseyngulu***

***Summary***

Defense fortresses on the Absheron peninsula were mainly relics of the 13th-14th centuries. The fortresses built in Absheron (Mardakan, Nardaran, Ramana, Bilgah etc.) were integral parts of the unified defense system and played the role of shelters and guard posts. The construction of Absheron fortresses along the northeastern coast was due to the expectation of danger from that direction. It the enemy captured one of the forts located along the coast, then there was serious resistance in the defensive structures in the villages of Mashtaga, Zabrat, Gala, and Ramana in the interior of the peninsula. According to researchers calculations, there were more than 30 such defense structures on the Absheron peninsula. If we look at the map of the Absheron peninsula, we can see the connection of coastal defense structures with the points in the interior of the peninsula.

***Rəyçilər: T.ü.f.d.dos., Elmira Cəfərova, T.e.f.d.dos., Taleh Əliyev***
***AMEA, Azərbaycanın orta əsrlər dövrü arxeologiyası şöbəsinin 30.09.2022 tarixli iclasın 09 saylı prot***
***Daxil olduğu tarix 14 oktyabr 2022-ci il***

**UOT: 9(4794)**

## ARRAN MEMARLIĞININ MƏRKƏZİ ŞƏHƏRİNDƏ SƏNƏTİN İNKİŞAFINA DAİR

***Əhmədova Türkan Yusif qızı***
***Lənkəran Dövlət Universitetinin doktorantı***
***ORCID ID: https://orcid.org/0000-0002-9797-2716***
***turkan_ahm@mail.ru***

**Xülasə:** *Gəncə şəhəri tarixi əhəmiyyətinə görə Azərbaycanın ikinci böyük şəhəri, ölkənin qərbində yer alan böyük sənaye və mədəniyyət mərkəzidir. Şəhər haqqında ərəb, fars, gürcü, rus və orta əsr Avropa müəlliflərinin əsərlərində rast gəlinir. Gəncə Azərbaycanın digər şəhərləri kimi əlverişli coğrafi mövqeyə, gözəl mənzərəyə sahib olan yaşayış məskəni olub tədricən şəhər kimi formalaşmışdır. X əsrin ortalarından şəhər iri siyasi, iqtisadi və mədəni mərkəzə çevrildi. Gəncənin siyasi mərkəzə çevrilməsi şəhərin iqtisadi həyatına da*